# Azərbaycanda multikulturalizm və tolerantlıq

**Bu gün artıq, dünyanın bütün sivil dövlətləri Azərbaycanı multikulturalizmin və tolerantlığın qorunub inkişaf etdirildiyi, eləcə də dini və milli münasibətlərin ən yüksək səviyyədə tənzimləndiyi bir dövlət kimi qəbul edir.**

Azərbaycan son illər multikulturalizm və tolerantlıqla bağlı bir çox beynəlxalq tədbirlərin uğurla həyata keçirildiyi mərkəz kimi tanınıb. Bu da hələ qədim zamanlardan ölkəmizdə mövcud olan dini və milli dözümlülük kimi bəşəri dəyərlərin təbliği, eyni zamanda, bugünkü Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılması baxımından geniş imkanlar açır. Məhz buna görə də Azərbaycan dövləti maraqlıdır ki, beynəlxalq tədbirlər ölkəmizdə daha intensiv şəkildə keçirilsin.

Ölkəmizdə multikulturalizmin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun hakimiyyəti dövründə ölkədə dinindən və milliyyətindən asılı olmayaraq, bütün xalqlar rifah və firavanlıq içərisində yaşamışdır. Ümummilli lider Heydər Əliyev respublikamızda multikulturalizm siyasətini uğurla həyata keçirmiş və ölkəmizi dünya miqyasında multikulturalizm ölkəsi kimi tanıtmışdır. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural adətlərinin qorunması sahəsində həyata keçirilən siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Cənab İlham Əliyevin ölkəmizdə multikulturalizmin inkişaf etdirilməsində və multikulturalizmin ölkənin sosial-iqtisadi inkişafında rolunun artırılmasında misilsiz xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Belə ki, ölkədə multikulturalizmin daha da inkişaf etdirilməsi məqsədilə cənab Prezidentin 15 may 2014-cü il tarixli sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əsas vəzifələri Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirməkdən, multikultural həyatda müxtəlif bölgələrə aid mədəniyyətlərin bir-birinə təmas dərəcəsini öyrənmək və təşviq etməkdən, müxtəlif dinlərə mənsub gənc din xadimlərinin peşəkar dini, dünyəvi biliklərinin artırılması istiqamətində tədbirlər həyata keçirməkdən və multikulturalizm üzrə dünya mütəxəssislərinin, eyni zamanda, keçmiş və müasir siyasi, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrini təhlil etmək və yaymaqdan, eləcə də multikulturalizmin ölkənin sosial-iqtisadi inkişafına təsirini təhlil etməkdən ibarətdir.

Azərbaycan multikulturalizm siyasətinin ilk dəfə meydana gəldiyi qərb dövlətlərindən də səmərəli multikulturalizm modeli təklif edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Ölkəmiz dünyada multikulturalizm mərkəzi kimi tanınır və bu sahədəki mövqeyi yüksək qiymətləndirilir. Xarici ölkələrin mətbuatı da dəfələrlə Azərbaycanın multikulturalizm sahəsində təcrübəsinin öyrənilməsinin vacibliyini qeyd etmişdir. Prezident İlham Əliyev bununla bağlı demişdir: “Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır”.

Respublikamızda dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikulturalizmin, milli-mənəvi dəyərlərin inkişafında və təbliğində Heydər Əliyev Fondunun da çox böyük xidməti vardır. Azərbaycanda və xarici ölkələrdə mədəni-kütləvi tədbirlər Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilir. Multikulturalizmin müxtəlif modellərinin - ABŞ, İsveç, Avstraliya, Kanada modellərinin olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model xarici ölkələrdə rəğbətlə qarşılanır və tətbiq edilir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır. ABŞ-ın Yuta və Oreqon ştatlarının senat və nümayəndələr palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannaməsi buna misal ola bilər.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilən “Azərbaycan Parisin ürəyində” adlı layihə çərçivəsində 2015-ci il sentyabrın 8-də Parisdə “Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti” mövzusunda konfrans keçirilmiş və “Parisin ürəyində Azərbaycan musiqisi” adlı konsert təşkil olunmuşdur. Cənab İlham Əliyevin 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etməsi dövlətimizin başçısının dediyi kimi, bir daha sübut edir ki, multikulturalizm Azərbaycanda dövlət siyasətidir, həyat tərzidir.

Hazırda multikulturalizm və onun bir şaxəsi olan tolerantlıq ölkəmizdə alternativi olmayan həyat tərzidir. Müxtəlif dinlərə mənsub insanların dinc şəraitdə birgə yaşamaları, çoxkonfessiyalılıq, etnik və mədəni müxtəliflik multikulturalizmin Azərbaycan modelinin üstün cəhətləridir.

**Teybə HÜSEYNOVA,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birinci kurs magistrantı.**

Respublika.- 2020.- 11 yanvar.- S.6.